# “Reklamı qadağan olunan əmtəələrin Siyahısı”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 17 oktyabr tarixli 414 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 479-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 fevral tarixli 1245 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Reklamı qadağan olunan əmtəələrin Siyahısı”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 17 oktyabr tarixli 414 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1732) aşağıdakı dəyişikliklər edilsin:

1. Preambulasına “yarımbəndinin” sözündən sonra “və “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 479-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 fevral tarixli 1245 nömrəli Fərmanının 2-ci hissəsinin” sözləri əlavə edilsin.

2. Həmin qərarla təsdiq edilmiş “Reklamı qadağan olunan əmtəələrin Siyahısı”na aşağıdakı məzmunda 16-cı hissə əlavə edilsin:

| | |
|---|---|
| 16. | Ətraf mühit üçün təhlükə potensialı olan əmtəələr: |
| 16.1. | İstifadə olunmuş qurğuşun-turşu akkumulyatorlar |
| 16.2. | İşlənilmiş batareyalar |
| 16.3. | İstifadə olunmuş şinlər |
| 16.4. | İşlənilmiş sürtkü və mühərrik yağları |

**Azərbaycan Respublikasının Baş naziri Novruz MƏMMƏDOV**

Bakı şəhəri, 30 avqust 2018-ci il
№ 365